2024

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# İYUN

## ASA beynəlxalq konfransda iştirak edib



GFIA və "Insurance Europe"-un XIV beynəlxalq konfransları keçirilib. ASA-nın rəhbərliyinin də iştirak etdiyi konfransların mövzusu sığorta bazarlarının inkişafında data-analitikanın rolu, elektronlaşmanın üstünlüklər və iqlim risklərinin idarə edilməsi olub. Konfrans çərçivəsində ASA-nın Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova dünya sığortaçıları ilə ikitərəfli görüşlər keçirərək yerli sığorta sektorunun mövcud vəziyyəti və inkişaf perspektivləri haqqında məlumat verib, qarşılıqlı əməkdaşlıq imkanlarını müzakirə edib.

## Həyat sığortalarına gətirilən yeni qaydalar ictimaiyyətə açıqlandı

ASA ilə ABA-nın təşkil etdiyi mətbuat konfransında Mərkəzi Bank tərəfindən həyat sığortalarına gətirilən yeni tənzimləyici qaydalara aydınlıq gətirilib. Jurnalistlərin suallarını cavablandıran tədbir iştirakçıları Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə “Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası Qaydaları”na və “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası”na edilmiş əlavə və düzəlişləri jurnalistlərə izah ediblər.



## ASA ilə Dövlət İdarəçilik Akademiyası əməkdaşlıq edəcək



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ASA ilə görüş keçirilib. Qarşılıqlı münasibətlərin müzakirə olunduğu görüşdə Akademiyanın rektoru akademik, professor Urxan Ələkbərov ilə ASA-nın İcraçı direktoru Elmar Mirsalayev əməkdaşlığa dair memorandum imzalayıblar.

## Sığorta ilə bağlı ilk tədqiqat işi təqdim olunub

ASA tərkibində fəaliyyət göstərən Araşdırma və İnkişaf Mərkəzi və ASA Tədris Mərkəzinin “Əhalinin sığorta barədə məlumatlılıq səviyyəsinin ölçülməsi” mövzusunda apardığı ilk tədqiqat işinin təqdimatı keçirilib. Tədqiqata 1201 nəfər əhali, 403 nəfər sığorta şirkətlərinin əməkdaşları və 13 nəfər peşəkar sığorta eksperti cəlb edilib. Mərkəzi Bank, ASA, sığorta və təkrarsığorta şirkətləri və sığorta agentləri ilə tətqiqat prosesində əməkdaşlıq edilib.

# X Azərbaycan Beynəlxalq Sığorta Forumu keçirildi



Ölkəmizdə sayca 10-cu "Azərbaycan Beynəlxalq Sığorta Forumu" – AIIF-2024 keçirilib.

Forumda Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov, Kənd təsərrüfatı naziri Məcnun Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev və Azərbaycan Sığortaçılar Assosiasiyasının Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova açılış nitqi ilə çıxış edərək sığortanın yüksək əhəmiyyətinə, mövcud vəziyyəti və inkişaf perspektivlərinə toxunublar. 20-yə yaxın ölkənin sığortaçılarının iştirak etdiyi Forum çərçivəsində "İqlim dəyişikliyinin sığorta sektoruna təsiri", "Bankasurance", "Avtonəqliyyat sığortası" və "Tibbi sığorta" mövzuları üzrə yerli və xarici peşəkar sığortaçı spikerlərin iştirakı ilə panellər üzrə müzakirələr baş tutub.

Qeyd edək ki, 2 gün davam edən Forumda yerli və xarici sığortaçıları da daxil olmaqla ümumilikdə 300 nəfərdən çox qonaq iştirak edib.












## DASK-ın rəhbərliyi dəyişdi – YENİ TƏYİNAT



Türkiyənin Təbii Fəlakət Sığortası Təşkilatına (DASK) yeni baş katib təyin olunub. Türkiyə mətbuatının məlumatına görə, bu, qardaş ölkənin bank və sığorta sektorlarında yüksək təcrübəyə malik olan Serpil Günaldır. O, bu vəzifəyə qədər "Ziraat Bank"da kənd təsərrüfatı bankçılığı və bank sığortaçılığı üzrə Qrup rəhbəri, həmçinin "Ziraat Bank"ın Monteneqro nümayəndəliyinin sədri vəzifələrində çalışıb.

## Faiz dərəcələrinin yüksəlməsi həyat sığortalarında buma səbəb olacaq

Dünyada artan faiz dərəcələri həyat sığortası bazarının böyüməsi və gəlirliliyi ilə bağlı proqnozları dəyişir. Yığım məhsulları onillik zəif tələbdən sonra istehlakçılarda yüksək maraq yaradıb. "Swiss Re Institute" həm 2022, həm də 2023-cü illərdə rekord satışlardan sonra bu il ABŞ-də sabit illik gəlir sığortası məhsulu üzrə (annuitet) yeni yüksəlişlər gözlədiyini bildirir. "Swiss Re Institute" yeni "Sigma" araşdırmasında qeyd edir ki, istehlakçılar daha yüksək pensiya gəlirlərini təmin edən həyat sığortası məhsulları almağa başladıqları üçün növbəti 10 il ərzində qlobal sığorta yığımlarında əlavə 1,5 trilyon dollar artım olacağı ehtimal edilir. Hesabatda qlobal yığımların 2034-cü ilə qədər 4 trilyon dollara çatacağı proqnozlaşdırılır.

Müqayisə üçün, qlobal həyat sığortası haqları 2010-2019-cu illər arasında, yəni aşağı faiz dərəcələrinin olduğu 10 il ərzində cəmi 300 milyard dollar artıb. "Swiss Re"-nin baş iqtisadçısı Jerome Jean Haegeli-nin sözlərinə görə, daha yüksək faiz dərəcələri həyat sığortası və pensiya məhsullarına demoqrafik göstəricilərin (qocalma) gətirdiyi pensiya yığım problemləri ilə daha yaxşı mübarizə aparmaq üçün yenilik yaradır. Yəni faiz dərəcələrinin normallaşmasının birbaşa nəticəsi olaraq yığım məhsulları yenidən cəlbedici olacaq.

## Qlobal təkrarsığorta bazarı 2024-cü ilin ilk 6 ayında daha rəqabətli olub

"Aon Reinsurance Market Dynamics"-in 2024-cü ilin ilk yarımili üzrə təkrarsığorta bazarının dinamikasına dair hesabatına əsasən, sığortaçılar əmlak riski üçün aşağı təkrarsığorta dərəcələri və təkmilləşdirilmiş şərtlər, habelə təkrarsığorta əhatəsi daxil olmaqla müqavilələrin ilin ortalarında yenilənməsinin müsbət nəticələrini gördülər.

Təkrarsığorta bazarı daha rəqabətli olsa da, ikinci dərəcəli əmlak itkilərinin volatilliyi, Atlantik qasırğa mövsümü üzrə proqnozların artması, sosial inflyasiya və tələfat ehtiyatlarının əlverişsiz inkişafı səbəbindən vəziyyət dinamik olaraq qalır.




Hesabat göstərir ki, təkrarsığortaçıların məcmu kapitalı 2023-cü ilin sonundakı 670 milyard dollardan 2024-cü ilin birinci rübünün sonunda 695 milyard dollara bərabər olmaqla yeni rekorda çatıb.



"A-Qroup Sığorta Şirkəti" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***11 350 AZN***

"Azərbaycan Sənaye Sığorta" ASC

*Sığorta növü: Yük sığortası üzrə*
*Sığorta hadisəsi: Daşıma həyata keçirən yük maşınının qəzaya uğraması nəticəsində yükə zərər dəymişdir*
*Sığorta məbləği:* ***113 000 AZN***





"Azsığorta" ASC

*Sığorta növü: DƏİS*
*Sığorta hadisəsi: Yanğın*
*Sığorta məbləği:* ***22 000 AZN***

"İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***11 900 AZN***





"Qala Həyat Sığorta" ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Bədbəxt hadisə nəticəsində müddətsiz əlillik*
*Sığorta məbləği: **71 004, 43 AZN***

"Qala Sığorta" ASC

*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği: **6 045, 38 AZN***





"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Sığorta olunanın vəfat etməsi*
*Sığorta məbləği: **31 216, 66 AZN***

"Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği: **20 040 AZN***



## PAŞA Sığorta 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günündə aztəminatlı ailələrin uşaqları üçün tədbir keçirib




Hər il olduğu kimi bu ildə PAŞA Sığorta 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə KSM tədbir həyata keçirib. Şirkəti bu il "GİD CSR Consulting" ilə birgə Goranboyda yaşayan aztəminatlı ailələrin övladları üçün "Şən avtobus" layihəsini həyata keçirib. Belə ki, tədbirdə Goranboyda yerləşən "Uşaq və Ailələrə Dəstək Mərkəzi"nin nəzdində olan uşaqların səmərəli vaxt keçirməsi və əylənməsi üçün xüsusi proqram hazırlanıb, onlara xüsusi hədiyyələr təqdim edilib.

## PAŞA Sığorta "Uşaq evindən sənə məktub var" layihəsini həyata keçirib

PAŞA Sığorta şirkətinin əməkdaşları Qurban bayramı ərəfəsində "GİD CSR Consulting" şirkətinin dəstəyi ilə Şəki şəhərində yerləşən 6 saylı Uşaq Evini ziyarət ediblər.

"Uşaq evindən sənə məktub var" layihəsi çərçivəsində uşaqlar tərəfindən məktublar vasitəsilə yazılan arzular PAŞA Sığorta əməkdaşları tərəfindən reallaşdırılıb. Səfər çərçivəsində 70-ə yaxın uşağa hədiyyə təqdim olunub.

## "Qala Sığorta" ASC ilə "United Payment" MMC arasında Memorandum imzalanıb

"Qala Sığorta" ASC maliyyə bazarının ilk elektron pul təşkilatı olan "United Payment" MMC ilə əməkdaşlıq anlaşması imzaladı. Anlaşmanın əsas məqsədi müştərilərin sığorta haqlarının rahat ödəməsi üçün xidmətin, vahid elektron portaldan istifadə olunmaqla tətbiqidir.




## "Qala Sığorta" şirkəti "ASAN Könüllüləri" Təşkilatı ilə imzaladığı memorandum çərçivəsində maliyyələşdirdiyi ilk layihə yekunlaşıb

ASAN Məktub - Yaz Düşərgəsi layihəsinin 3-cü günündə Qala Sığortanın əməkdaşları da iştirak ediblər. İntellektual xarakterli və əyləncəli tədbir, həssas qrupa aid bütün iştirakçı uşaqların mükafatlandırılması ilə nəticələnib.

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az